Vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Tofiq Həsənovun 2009-cu ilin dekabrın 23-nə təyin edilmiş bələdiyyə seçkilərində 71 saylı Masallı kənd seçki dairəsi üzrə Ərkivan qəsəbə sakini Nəzərov İldırım Kamil oğlunun 8 yanvar 2010-cu il tarixli 621 saylı müraciəti üzrə

# R Ə Y İ

Bakı şəhəri 09 yanvar 2010-cu il, saat 16.45

2009-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkiləri ilə əlaqədar Masallı rayonu Ərkivan qəsəbə sakini Nəzərov İldırım Kamil oğlu Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına müraciət edərək, 71 saylı Masallı kənd seçki dairəsi üzrə Ərkivan bələdiyyəsini əhatə edən 4, 5, 6 saylı seçki məntəqələrində vətəndaşların hüquqlarının pozulmasını bildirmiş və qanunla müəyyən edilmiş və həmin seçki məntəqələrində seçkilərin nəticələrinin ləğv edilməsini xahiş etmişdir.

Müraciət Seçki Məcəlləsinin və Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimatın tələblərinə uyğun tərtib edildiyindən və nəzərdə tutulan müddətdə verildiyindən araşdırmaya qəbul edilmişdir.

Müraciətin tam, hərtərəfli, obyektiv və qərəzsiz araşdırılması təmin edilmişdir.

Araşdırma ilə müəyyən edilmişdir ki, Ərkivan bələdiyyəsinə seçkilər üzrə 5 və 6 saylı seçki məntəqələrindən səsvermənin nəticələrinə dair yekun protokolunun maraqlı şəxslərə verilmiş, təsdiq edilmiş surətlərinin səsvermənin nəticələrinə dair MnSK-nın yekun protokolları ilə müqayisəli təhlili nəticəsində müəyyən edilən fərqlər seçicilərin iradəsini müəyyənləşdirməyə imkan vermədiyindən müraciətin qismən təmin edilməsi üçün əsaslar yaranmışdır. Təqdim edilən 4 saylı seçki məntəqəsinin protokolu isə seçki qanunvericiliyinin tələblərinə uyğun olaraq tərtib edilməməsi sübuta yetrilmədi.

Göstərilənlərə əsasən seçki dairəsi üzrə vətəndaş İldırım Nəzərovun müraciəti qismən təmin edilməli, 71 saylı Masallı kənd dairə seçki komissiyası üzrə Ərkivan bələdiyyəsini əhatə edən 5 və 6 saylı seçki məntəqələri üzrə səsvermənin nəticələri etibarsız sayılmalıdır.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin məntəqə seçki komissiyasının vəzifələrini müəyyən edən 37-ci maddəsinin 37.1.8-ci bəndinə əsasən məntəqə seçki komissiyası seçki məntəqəsində səsvermənin nəticələrini müəyyənləşdirir, səsləri hesablayır və səsvermənin nəticələri haqqında

protokolları dairə seçki komissiyasına çatdırır. Həmin Məsəllənin 106.6-cı maddəsinə əsasən səsvermənin nəticələri haqqında məntəqə seçki komissiyasının yekun protokolları bu Məsəllənin 40.2 və 40.4-cü maddələrində göstərilən şəxslərin müşahidəçi ilə tərtib olunur.

71 saylı Masallı kənd seçki dairəsinin qeyd edilən seçki məntəqələrində Seçki Məcəlləsinin tələblərinə riayət olunmaması vətəndaşların seçki hüquqlarının pozulması ilə nəticələnmiş, ona görə də həmin seçki komissiyaları buraxılmalıdır.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 23.2-ci maddəsinin tələbinə görə aşağı seçki komissiyası tərəfindən vətəndaşların seçki və referendumda iştirak etmək hüquqları pozulduqda və belə bir hal nəticəsində Mərkəzi Seçki Komissiyası müvafiq ərazidə səsvermənin nəticələrini etibarsız hesab etdikdə, Mərkəzi Seçki Komissiyası həmin aşağı seçki komissiyasını buraxa bilər.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 23.2-ci, 37-ci, 106.6-cı, 112-ci, 112-1-ci, 240-cı maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimatın" 1, 2, 4, 6 və 7-ci bəndlərinə əsasən **rəyə gəldim :**

1. 71 saylı Masallı kənd seçki dairəsindən Ərkivan qəsəbə sakini Nəzərov İldırım Kamil oğlunun 08 yanvar 2010-cu il tarixli 621 saylı müraciəti qismən təmin edilsin.
2. Ərkivan bələdiyyəsini əhatə edən 5 və 6 saylı seçki məntəqələri üzrə səsvermənin nəticələri etibarsız sayılaraq ləğv edilsin.
3. Azərbaycan Respublikası Seçki Məcəlləsinin 23.2-ci maddəsinə əsasən 71 saylı Masallı kənd seçki dairəsinin 5 və 6 saylı seçki məntəqələri buraxılsın.
4. Qərar dərc edildiyi gündən qüvvəyə minir.

Ekspert qrupunun üzvü Tofiq Həsənov